“Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında Saziş”in təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il avqustun 22-də Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında Saziş” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 noyabr 2023-cü il
№ 2363

Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsi haqqında

SAZİŞ

Bundan sonra “Tərəflər” adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti,

öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq və bərabərlik, qarşılıqlı fayda və hörmət prinsipləri əsasında energetika sektorunda ikitərəfli əməkdaşlığın gücləndirilməsinə kömək etmək üçün Tərəflərin qarşılıqlı niyyətindən çıxış edərək,

beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərini rəhbər tutaraq,

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında Dostluq və əməkdaşlıq haqqında 27 may 1996-cı il tarixli Müqavilənin müddəalarına əsaslanaraq,

energetika sahəsində Azərbaycan-Özbəkistan əməkdaşlığının inkişafının, Tərəflərin dövlətlərinin sosial-iqtisadi inkişafına müsbət təsir edəcəyinə əmin olaraq, energetika sahəsində əməkdaşlığın daha da dərinləşdirilməsinə çalışaraq, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1
Məqsədlər

Bu Sazişin məqsədi bu Sazişin 2-ci maddəsində göstərilən əməkdaşlığın inkişafı istiqamətlərinin həyata keçirilməsində Tərəflərin hökumətlərarası əməkdaşlığına və təsərrüfat subyektləri arasında əməkdaşlığa yardım göstərməkdir.

Tərəflər energetika sahəsində birgə layihələrin həyata keçirilməsini dəstəkləyirlər.

Tərəflər arasında əməkdaşlıq qarşılıqlı maraqların qorunmasına əsaslanır və Tərəflərin mənafelərinə xələl gətirməməlidir.

Maddə 2
Əməkdaşlıq sahələri

Tərəflər uzunmüddətli əsasda neft, qaz, elektrik enerjisi sahələrində hökumətlərarası əməkdaşlığı və təsərrüfat subyektləri arasında əməkdaşlığı aşağıdakı istiqamətlərdə inkişaf etdirməyə səy göstərirlər:

Tərəflərin dövlətlərinin ərazisində Tərəflərin təsərrüfat subyektləri tərəfindən neft və qaz hasilatı;

Tərəflərin dövlətlərinin ərazisində, habelə Tərəflərin təsərrüfat subyektlərinin razılaşması ilə üçüncü ölkələrin ərazisində geoloji kəşfiyyat işlərinin və karbohidrogen hasilatının aparılması;

neft-kimya və neft emalı sahəsində əməkdaşlıq;

ticarət üzrə birgə müəssisənin yaradılması;

Tərəflərin dövlətlərinin ərazisində yeni istilik elektrik stansiyalarının tikintisi üzrə layihələrin həyata keçirilməsi imkanlarının öyrənilməsi;

elektrik enerjisinin istehsalı, ötürülməsi və ixracı;

bərpa olunan enerji mənbələri əsasında elektrik enerjisinin istehsalı üzrə layihələrin həyata keçirilməsi sahəsində yardım edilməsi və təcrübə mübadiləsi;

bərpa olunan enerji mənbələri əsasında gücü 1 MVt-dan az olan enerjinin istehsalının təşviqi;

enerjiyə qənaət edən texnologiyaların tətbiqi sahəsində təcrübənin öyrənilməsi;

qarşılıqlı maraq doğuran digər əməkdaşlıq istiqamətləri.

Maddə 3
Əməkdaşlıq formaları

Bu Saziş çərçivəsində əməkdaşlıq aşağıdakı formalarda həyata keçirilir:
ikitərəfli məsləhətləşmələr;
məlumatların, informasiyaların, ekspert rəylərinin, təcrübənin, praktiki və elmi biliklərin mübadiləsi;
beynəlxalq enerji forumlarında mövqelərin əlaqələndirilməsi;
Tərəflərin dövlətlərinin elmi tədqiqat təşkilatları, texnologiya mərkəzləri və sənaye müəssisələri arasında tərəfdaşlıq əlaqələrinin inkişafı;
təlim, ixtisasartırma və təhsil məqsədi ilə mütəxəssislərin mübadiləsi;
qarşılıqlı investisiyaların stimullaşdırılması;
Tərəflər arasında razılaşdırıla bilən istənilən digər əməkdaşlıq formaları. Tərəflər arasında qarşılıqlı maraq olduğu təqdirdə əməkdaşlığın forma və metodlarına və maliyyə öhdəliklərinin şərtlərinə dair ayrıca müqavilələr bağlanıla bilər.

Maddə 4
Birgə İşçi qrup

Bu Sazişin icrasının əlaqələndirilməsi Birgə İşçi qrup vasitəsilə həyata keçirilir.
Tərəflər Birgə İşçi qrupun tərkibini bu Sazişin qüvvəyə mindiyi tarixdən 30 gün ərzində işçi qrupunun tərkibinin mübadiləsi vasitəsilə diplomatik kanallarla razılaşdırırlar.
Əməkdaşlıq istiqamətlərindən asılı olaraq, Birgə İşçi qrupun fəaliyyətinə Tərəflərin dövlətlərinin maraqlı idarə və təşkilatlarının nümayəndələri cəlb oluna bilərlər.
Birgə İşçi qrupun iclasları həm əyani, həm də Tərəflərin qarşılıqlı razılığı ilə videokonfrans formatında keçirilə bilər.
Görüşlərin tarixi, yeri, gündəliyi və formatı Tərəflər arasında əvvəlcədən razılaşdırılır.
Birgə İşçi qrupun hər bir iclasının sonunda protokol tərtib edilir.

Maddə 5
Maliyyələşdirmə

Tərəflərin hər biri bu Sazişin müddəalarının icrası ilə bağlı bütün xərcləri, Tərəflər arasında başqa cür razılaşdırılmadığı təqdirdə, müstəqil şəkildə qarşılayırlar.

Maddə 6
Fikir ayrılıqlarının həlli

Bu Sazişin təfsiri və (və ya) tətbiqi ilə bağlı istənilən fikir ayrılıqları Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Maddə 7
Digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər

Bu Saziş Tərəflərin dövlətlərinin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn Tərəflərin hüquq və öhdəliklərinə toxunmur.

Maddə 8
Dəyişikliklər

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və ayrıca protokollarla rəsmiləşdirilən və bu Sazişin 9-cu maddəsinə uyğun olaraq qüvvəyə minən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 9
Yekun müddəalar

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurları Tərəflərin yerinə yetirməsi barədə diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.
Bu Saziş qeyri-müəyyən müddətə bağlanılır və Tərəflərdən birinin digər Tərəfin bu Sazişi ləğv etmək niyyəti barədə diplomatik kanallar vasitəsilə yazılı bildirişini aldığı gündən altı ay sonra ləğv edilir.
Bu Sazişin ləğv edilməsi onun qüvvədə olduğu müddətdə başlamış və ləğv edildiyi vaxta qədər tamamlanmamış layihələr üzrə Tərəflərin öhdəliklərinə təsir göstərmir.
Bakı şəhərində 22 avqust 2023-cü il tarixində, hər biri Azərbaycan, özbək və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.
Təfsir zamanı fikir ayrılıqları yarandığı təqdirdə, rus dilindəki mətnə üstünlük verilir.

Azərbaycan Respublikası Hökuməti adından (imza)	**Özbəkistan Respublikası Hökuməti adından (imza)**